*Azərbaycan Respublikası Prezidentinin*
*1999-cu il 14 may tarixli*
*133 nömrəli Fərmanı ilə*
***təsdiq edilmişdir.***

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali hərbi-tədris müəssisələrinin məzunları üçün döş nişanları haqqında Əsasnamə

1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali hərbi-tədris müəssisələrinin (bundan sonra «Ali hərbi-tədris müəssisələri» adlandırılacaq) məzunları üçün döş nişanları ali hərbi-tədris müəssisələrinin tam kursunu bitirmiş, o cümlədən orta məktəb proqramı üzrə imtahanları ekstern yolu ilə verən şəxslərə verilir.

2. Ali hərbi-tədris müəssisələri məzunlarının döş nişanlarını gəzdirməsi üçün əsas onların həmin ali hərbi-tədris müəssisələrini bitirməsi haqqında diplomdur.

3. Ali hərbi-tədris müəssisələri məzunlarının döş nişanı ali hərbi-tədris müəssisəsinin rəisi tərəfindən ali hərbi-tədris müəssisəsini bitirmək haqqında diplom verilərkən təqdim olunur.

Ali hərbi-tədris müəssisəsi məzunlarına döş nişanının verilməsi təntənəli şəraitdə həyata keçirilir.

Ali hərbi-tədris müəssisələrini bitirənlərin və diplomların qeydiyyat kitabında, ali hərbi-tədris müəssisəsi məzununun şəxsi işinin bütün nüsxələrində döş nişanının verilməsi haqqında qeyd edilir.

4. Döş nişanının verilməsi ali hərbi-tədris müəssisəsini bitirmək haqqında diplomda «Döş nişanı verilib» ştampı ilə qeyd olunur.

5. Döş nişanının haqqı pul ilə ödənilir. Döş nişanı itəndə və ya korlananda yeni döş nişanı verilmir.

6. Ali hərbi-tədris müəssisəsinin məzunları döş nişanını Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının hərbi geyim formasının daşıma qaydalarına uyğun gəzdirirlər.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali hərbi-tədris müəssisələrinin məzunları üçün döş nişanlarının təsviri

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali hərbi-tədris müəssisələrinin məzunları üçün döş nişanları: Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin məzunları üçün — zeytun, Bakı Ali Hərbi Təyyarəçilik Məktəbinin məzunları üçün — göy, Bakı Ali Hərbi Dənizçilik Məktəbinin məzunları üçün — qara rənglərə uyğun fonda, gümüşü rəngli palıd yarpaqları ilə haşiyəyə alınmış ali hərbi-tədris müəssisəsinin emblemindən ibarətdir. Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasını bitirmiş məzunlar üçün döş nişanında ağ fonda Silahlı Qüvvələrin emblemi təsvir olunur və qızılı rəngli palıd yarpaqları ilə haşiyəyə alınır.

Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin emblemi — çarpazlaşan iki tüfəngin, tüfənglərin altında dəbilqənin, üstündə isə açıq kitab və məşəl ilə səkkizguşəli ulduzun təsviridir. Kitabın səhifəsi və məşəlin haşiyəsi ağ, məşəlin alovu qırmızı, məşəlin dəstəyi qara, qalan təsvirləri isə qızılı rəngdədir.

Bakı Ali Hərbi Təyyarəçilik və Bakı Ali Hərbi Dənizçilik Məktəblərinin emblemləri Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin emblemi kimidir, ancaq tüfənglər ilə dəbilqənin əvəzinə müvafiq olaraq qızılı rəngli açılmış qartal qanadları və lövbər təsvir edilir.

Döş nişanının aşağısında palıd yarpaqlarının üzərində ağ fonda qara hərflərlə müvafiq tədris müəssisəsinin adının baş hərflərindən ibarət abbreviatura yazılır.

## Ali hərbi-tədris müəssisələrinin məzunları üçün döş nişanları




Bakı Ali Birləşmiş
Komandanlıq Məktəbinin
məzunları üçün




Bakı Ali Hərbi
Təyyarəçilik Məktəbinin
məzunları üçün




Bakı Ali Hərbi
Dənizçilik Məktəbinin
məzunları üçün




Azərbaycan Respublikası
Silahlı Qüvvələri
Hərbi Akademiyasının
məzunları üçün